O durna qatarlı qızları hanı?
Şirin söhbətləri, sözləri hanı?
Dönməz igidlərin özləri hanı?
Yox, Muğan bu sayaq Muğan olmayıb!

Oyansın, sularım axmasın hədər,
Açılsın kanallar, bəndlər-bərələr.
Gözəllər yuxuda qalmaz bu qədər,
Məgər vaxt çatmayıb, zaman olmayıb? –
Deyib Kür çırpınır öz məcrasında,
Balaca arxlara axmaq istəyir.
Mərzlər arasından,
Yol arasından
Uzanan çöllərə baxmaq istəyir.

Kür yaman darıxır,
Axı tanışdır
Naxırlı-sürülü bu yerlər ona.
Kürsüz Muğanımın yazı da qışdır,
Odur ki, ana Kür deyirlər ona.

Muğansa uyuyur,
Bu çağırışdan,
Bu sözdən-söhbətdən bixəbər kimi.
O yeni qüvvətlə çıxacaq qışdan
Yatıb yorğun almış igidlər kimi.

Hələlik Kür sakit,
Turac pərişan.
O boz torağay da qəmli oxuyur.
Yox, onlar bilmir ki, yuxuda Muğan
Məhsul bayramına süfrə toxuyur!

ŞAİR TALEYİ

Taleyin hökmünü bilməlisən sən...
Hamının qəlbindən özün halısan.
Hamının yerinə gülməlisən sən,
Hamının yerinə ağlamalısan!

Bütövlük

SÖHRAB VƏ TAHİRƏ

I

Sənin o tufanlı yolların üstə
Baharam, çiçəyəm, qızılgüləm mən.
Düzdür, bölünməkdən qorxuram ancaq
Sevinci sənինlə gərək böləm mən.

Bir vüsal istədin, keçdi qərinə,
Həsrəti mən çəkdim sənin yerinə.
Dostuna dostamsa, düşmənlərinə –
Qılıncı sıyrılmış vuran ələm mən.

Hıcranı nə qədər qucaqlayasan,
Atəşi gözünlə ayaqlayasan?
Mümkünmü içində sən ağlayasan,
Nəşələr qoynunda deyib-güləm mən?

Kor tale bizimlə oyun oynadı,
Bizi bitməz işə salıb sınadı.
Ürəyim amansız divanxanadı –
Taleyin yerini kaş ki, biləm mən!

Ağlayır ürək də, beyin də, baş da,
Dönməz bu həsrətə torpaq da, daş da,
Namərdəm yüz yaşda, yüz əlli yaşda
Vüsalı görməsəm əgər, öləm mən!

1974

II

Uca dağlar, yol verin
Uzaqdan ana gəlir.
Ovxarlı xəncərini
Çəkib hicrana, gəlir.

Daşa dönmüş ümidlər,
Duyğular cana gəlir.
Yola çıxın, igidlər,
Uzaqdan ana gəlir.

Bir nəfərin anası,
Milyonların istəyi,
Bir oğul təmənnası,
Bir torpağın diləyi.

Uzaq düşmüş yaxından
Çıxıb bu yana gəlir.
Ay Bakı, ay Naxçıvan,
Yola çıx, ana gəlir.

Ay Qarabağ, Muğan, Mil
Yola, izə çiçək sər,
Vüqarlı Qoşqar, əyil,
Ana gəlir, ay ellər!

Şair oğlu demişkən
Gözündə qətrə gəlir.
Saçındakı gümüşdən
O yerin ətri gəlir.

Sözündə, ləhcəsində
O yerin duzu gəlir.
Ananın nəfəsində
O yerin özü gəlir.

Daşa dönmüş ümidlər,
Arzular cana gəlir.
Yola çıxın, igidlər,
Uzaqdan ana gəlir!

1971

III

İsti qoynu intəhasız Vətənin,
Ağ saçları bəyaz qarın təşbehi.
Şerindəki ahəng idi o sənin,
Nəfəsinə söyləyirdin yaz mehi.

Məclislərdə ümiddən söz salana
"Mən bir ana gözləyirəm" – deyərdin.
"Ən işıqlı ümidimdir o ana,
yana-yana gözləyirəm" – deyərdin.

Astanaya qəfil kölgə düşəndə
Səksənərdin: – Kaş ki anam gələydi!
Köynəyinə nardan ləkə düşəndə
Söyləyərdin: – Kaş ki anam siləydi!

Saf büllura gözlərindən axan yaş,
Musiqiyə ana səsi deyərdin.
Sən anana anadan çox, a qardaş,
Təşbehlərin xəzinəsi deyərdin.

Şair dostum, gözlərimi göynədir,
Bir xəbər ki, axır çatdı sənə də.
Ana öldü!..

Bu yer nədir, göy nədir,
Hər şerində görünəcək yenə də:

Ağ saçları bəyaz qarın təşbehi,
Gül nəfəsi ilk baharın təşbehi,
Özü nurlu arzuların təşbehi,
Adı sonsuz etibarın təşbehi.

Andı, polad qalaları aldıran,
Bayrağını üfüq boyu qaldıran
Bir inamın, bir vüqarın təşbehi.

1973-74

NARBƏND AĞACI

Məmməd Araza

Bir ağac görmüşəm Naxçıvanda mən,
Çətrinin altına sığar bir aləm.
Vətən bağlarından, meşələrindən
Keçmişəm – narbəndə rast gəlməmişəm.

Uzaqdan deyərsən zümrüd barı var,
Zümrüd parçasıdır hər bir yarpağı.
Lakin nə üstündə qızıl narı var,
Nə bənd-bənd göyərir qarğısayağı.

Bəs niyə adını qoyublar narbənd?
Deyirlər kəsilir nəsli ilbəil.
Nə calaq götürür, nə də ki, peyvənd,
O nə toxum verir, nə də bir şitil.

Payız küləyilə, qış sazağıyla,
Yay da günəşiylə onu qovurur.
Narbəndsə zümrüdü qol-budağıyla
Baharı yaşadıb yamyaşıl durur.

Elə bil çəkiblər zümrüd suyuna,
Görənlər ya küknar, ya şamdır deyir.
Onun çətirinə, onun boynuna
Uzaqdan baxanlar ehramdır deyir.

Kimsədən istəmir bircə qətrə su,
Kimsə gövdəsinə çəkməyib tumar.
Yay od ələyəndə, sinə dolusu
Altında sərinlik udub yolçular.

Şaxta qovuranda, leysan yağanda
Sığınıb çətrinə bir bölük adam.
Palıd parçalayan şimşək çaxanda
İnsana ev olub, mal-qaraya dam.

Kimsəyə fərq qoymur – gəldi-gedərdi –
Buraxır hamını öz kölgəsinə.
Yamyaşıl çətri də sanki sipərdi,
Borana, tufana hey gərir sinə.

Fəqət zaman keçir – azalır narbənd,
Deyirlər kəsilir nəsli ilbəil.
Nə calaq götürür, nə də ki, peyvənd,
O nə toxum verir, nə də bir şitil.

Zirvəsi buludda, kökləri yerdə,
Dayanıb müdrik bir ağsaqqal kimi.
Bəlkə çıxmayacaq sabaha bir də,
İtəcək yamyaşıl bir xəyal kimi.

O, bunu düşünmür, düşünmür əsla,
Sanki unudubdur öz həyatını.
Yenə də əvvəlki o ehtirasla
Açır gələnlərə qol-qanadını.

Belə gəlib-gedir bizim varlığa,
Döyür dönə-dönə onu külək, qar.
Ən böyük hünərə – fədakarlığa
Zərbi-məsəl edir onu adamlar.

O tənha narbəndi seyr edirəm mən,
Yaddaşda onuntək qalaydıq, ay dost!
Heç nə istəməyən, nəyi var verən
Bir narbənd ağacı olaydıq, ay dost!

1973

***

Balaş Azəroğluya

Mən sənə demirəm, aylı gecələr
Sənsiz ulduzlara baxmaqdır peşəm.
Demirəm, səhərdən axşama qədər
Sənin yollarından göz çəkməmişəm.

Demirəm, sevincim, boxtiyarlığım
Sənin adın ilə bağlıdır ancaq.
Eşqim, səadətim, bütün varlığım
Demirəm, sənindir, sənin olacaq.

Qoltuq ağacıdır şikəstə dayaq,
Demirəm, mənə də tək sən dayaqsan.
Həyat yollarında demirəm, ancaq,
Büdrəsəm, sən məni saxlayacaqsan.

Bunları demirəm!
Susuz bir insan
Deməz ki susuzam, yox, deməz bunu.
Quruyub çatlamış dodaqlarından
Bilərlər adamın susuzluğunu...

1961

GÖRÜŞ GÜNÜ

Mədinə Gülgünə

Bəlkə röyada idi...
Böyük bir mehmanxana
Bir vüsalı körpətək öpüb qundaqlayırdıq.
Saç-saqqalı ağarmış üç kişi, bir də ana –
Hərdən şeir deyirdik, hərdən də ağlayırdıq.

Şerimiz gizli-gizli, rədifi "gizli-gizli",
Gözümüzün yaşı da axırdı xısın-xısın.
Analar kövrək olur, analar ağlar gözlü,
Mümkündürmü kişilər uşaq kimi ağlasın?!

Kişilər ağlayırdı; elə bil ki, baharın
Yağışları onların gözlərindən yağırdı.
Elə bil ki, Səhəndin, Savalanın, Qoşqarın
Quzey qarı əriyib damcı-damcı axırdı.

Biz – üç kişi, bir qadın – gah uşağa dönürdük,
İllərdən xatirələr deyirdik varaq-varaq.
Gah gözümüz həsrətlə yollara zillənirdi,
Deyirdik bu nə yoldur, həm yaxındır, həm uzaq.

Hərdən baxışlarımız tutqun səma olurdu,
Gah bulud dağılırdı, gün çıxırdı bir anda.
Bu nə işdi, gözümüz boşalırdı, dolurdu,
Deyirlər yaxşı olmaz kişilər ağlayanda.

Bunlar həsrət yaşıydı, yoxsa sevinc yaşıydı?
Məsnəvi misrasıtək qoşalaşıb axırdı.
Yoxsa qərinələrin buzlaşmış yaddaşıydı,
Bir vüsalla əriyib gözümüzdən yağırdı.

Bəlkə röyada idi...
Böyük bir mehmanxana,
Bir vüsalı körpətək öpüb qundaqlayırdıq.
Saç-saqqalı ağarmış biz – üç kişi, bir ana, –
Hərdən şeir deyirdik, hərdən də ağlayırdıq...

1972

DAĞLARDA

Mirzə İbrahimova

Haçalandı dağ yolları
Biri sağa, biri sola.
Qalxdım yaşıl zirvələrə
Nəfəsimi ala-ala.

Yüzillikdir, palıda bax,
Uca başı göyə dayaq.
Min qol atıb, min bir budaq
Kölgəsini sala-sala.

Duman çöküb qaşdan-qaşa,
Örtüb dağı başdan-başa.
Kəklik uçur daşdan-daşa
Qanadını çala-çala.

O qartaldır zirvələrdə,
O cüyürdür qaçır yerdə.
Valeh oldum bir də, bir də
Bunlar mənim ola-ola.

Fəqət birdən ürək yandı,
Şölə çəkdi alovlandı –
O görünən Savalandı,
Baxdım, gözüm dola-dola.

Bir ürəkdir o yan, bu yan,
Aralığı kəsdi hicran.
Dillən könül, nə baxırsan
Xəyallara dala-dala?

CƏNUBUN DƏRDİ

Süleyman Rüstəmə

Dedilər: köksünə xəncər saplanıb,
Dedim: ölməmişəm, hələ varam mən!
Dedilər: qəhr edər – dərdin böyükdür,
Dedim: bu dərdlə də yaşayaram mən!

Dedim: Savalandır ən böyük dağım,
Səttarxan sözüdür mənim bayrağım.
Yayılsın dünyaya sözüm, sorağım
Min-min yara almış bir diyaram mən.

Sıxıb dişlərimi kinlə, qəzəblə,
Sabahın yoluna baxıram hələ!
Daha mümkün deyil yaşamaq belə,
Paslı zəncirləri gərək qıram mən!

1959

FİLLƏR DƏ AĞLAYAR

Dolaşıb yanımda öz adətinlə
Atılıb-düşürsən, oyun açırsan.
O şıltaq, o şeytan təbiətinlə
Hərdən yıxılırsan, durub qaçırsan.

Sənə qoşulurdum həmişə mən də
Hay-küy də salırdın, qab da qırırdın,
Qəlbinə dəymirdim.
İşdən dönəndə
Sən mənə nağıl da danışdırırdın.

Bu gün elə deyil. Kədərliyəm mən,
Şıltaq oyunların açmır qəlbimi.
Əlini qeyzlə çəkdim üzümdən,
Baxdın gözlərimə oxlanmış kimi.

Mən heç vaxt qəlbinə toxunmamışdım,
Bu gün ürəyimdən xəbərin varmı?
Baxdın gözlərimə – gözlərim yaşdı,
Kişi də...
Ata da heç ağlayarmı?

Yox, yox sən uşaqsan, kiçiksən hələ,
Atanı ağladan səbəb var, qızım.
Azman görkəmiylə o fillər belə
Bəzən dözməyərək ağlayar, qızım.

Həyat bəsləyibdir möhkəm, sərt məni,
Heç vaxt bilməmişəm bahardı, qışdı.
Aldığım zərbələr, aclıq, dərd məni
Heç zaman, heç zaman ağlatmamışdı.

Baban bu dünyadan köçüb gedəndə
Atanın indiki yaşında idi.
(Atalar gənc ölür...
Kim bilir mən də...)
Onda ağlamadım, fəqət qəm yedim.

Nənən də öləndə ağlamadım mən,
Qəlbimə axırdı gözümün yaşı.
Deyirlər, su içir saçlar ürəkdən,
Budur bax,
Ağarır atanın başı.

Gülüm, bilirsənmi şairdir atan,
Söylə, bilirsənmi, şairlik nədir?
Gözümün yaşını bu gün axıdan
Səbəb də, günah da şairlikdədir.

Yox, təvazökarlıq tutmur bu yerdə,
Şairəm, özü də yaxşısındanam.
Bunu yüz yol deyib tənqidçilər də,
Lap heç deməsinlər.
Məgər nadanam?!

Gücümü, qüvvəmi görmürəm məgər,
Məgər mən görmürəm yaxşını, pisi?
Öz zövqüm mənimçün dünyaya dəyər,
Gəlsə də dünyanın min tənqidçisi.

Bir də
İndi şair artıb o qədər,
Bahar seli kimi hey gəlir ardı.
Onların yanında mənim kimilər
Puşkindi, Sabirdi, Pol Eluardı.

Düzdür, şeriyyətin yolunda mən də
Elə bir uca dağ yaratmamışam.
Lakin xoşbəxtəm ki, sözü deyəndə
Bir əvəz almağa can atmamışam.

Mən çalışmamışam xoşa gəlməyə,
Çoxları ucalıb bu yolla, nə qəm.
Dalda dodaq büzüb, üzə gülməyə
Can bala, əvvəldən öyrənməmişəm.

Şair var, görürsən, hər kəlməbaşı
"Dərdin alım" deyir qadınlar kimi.
Baxırsan gövdəsi dəyirman daşı,
Hərlənir sənətdə payı var kimi.

Ötəri insana, ötəri hissə
Şeir yazmamışam. Şadam buna da.
Nəğməmin ürəyi vətən deyilsə,
Mənə oğul deməz doğma ana da!

Lakin sözlərinə çox inandığım,
Dönməz, ləyaqətli insan sandığım,
Şəninə nəğmələr qoşduğum insan
Qəlbimi tapdadı bu gün, balacan.

O dedi üzümə:
"Lazımsa əgər,
İnsan sözünü də dəyişməlidir.

Tufanlara qarşı dursa bir nəfər,
Xəstə yatağından qaçan dəlidir..."

O dedi:
"Nəsimi dönsəydi bir an
Söylə diri-diri soyulardımı?
Cordano Bruno hətta yalandan
Dönsəydi, tonqalda kül olardımı?"

Bunları o dedi,
O dedi, bəli,
Quruyub mən daşa döndüm az qala.
Mərdliyin, sərtliyin uca heykəli –
Mən ona bu sayaq baxardım, bala.

İndi ağlayıram mən bu dərd ilə,
Yandırır sinəmi qəm-qubar, qızım.
Azman görkəmiylə o fillər belə
Bəzən dözməyərək ağlayar, qızım.

Yerə tabaşirlə çəkib xanalar,
Siz dünən həyətdə oynayırdınız.
Sənin özün kimi qəşəng bir qız var,
Cığallıq elədi oyunda o qız.

Balaca əlini ölçə-ölçə sən
Sübuta yetirdin haqq olduğunu.
O qız da dönmədi öz dediyindən
Durub seyr edirdim kənardan bunu.

Nəsihət verməyi sevir böyüklər,
Yanaşıb mən səni danladım bir az.
Özgə uşağına adam nə deyər? –
Sənə acıqlandım, dedim: yaramaz!

Dedim güzəştə get, olsan da haqlı!
Oyundan kənara çəkildin həmən.
Baxdın gözlərimə sən qaşqabaqlı,
Hönkürdün, hıçqırdın, ağladın birdən.

Mənə haqsız dedin: haqlıykən dönmək
Balaca qəlbinə gəldi ar, qızım.
Uşaq heç,
Haqsızlıq önündə demək
Bəzən böyüklər də ağlayar, qızım.

Mənə "sözlərini dəyiş!" söyləyən
O əmi görəydi səni bu anda!
Görəydi atanın önündə də sən
Sözündən dönməyib məğrur duranda.

Balaca boyunu,
Şah vüqarını
Görüb bir xəcalət çəkəydi barı.
Görəydi özünü, övladlarını
Dönməyib ölümə tapşıranları.

İnsanlar bir ömür yaşayır ancaq,
Demək sürünmək də, uçmaq da olar.
Çətindir kürənin üzünü tapmaq,
Şüşə güzgüsündə bircə üzü var.

Bir üzlü, bir sözlü – demiş atalar,
Yüz ildir belə bir ömrün bir günü.
Bu Odlar yurdunda bir məsəl də var:
Kişilər yalamaz tüpürdüyünü.

O isə yaladı,
Hətta mənə də
Belə rəzalәti gördü məsləhət.
Bax, qızım, gözlərim doldu yenə də,
Sinəmdə nifrətə döndü məhəbbət.

Sən başa düşməzsən, uşaqsan hələ,
Atanı ağladan səbəb var, qızım.
Azman görkəmiylə o fillər belə
Bəzən dözməyərək ağlayar, qızım!

1967

YEDƏK GƏMİSİ

Dartınır arxada yedək gəmisi,
Gedir sükançısı özündən qabaq.
Böyük paraxoddan onu cəmisi
Yüz qulac yoğun ip ayırır ancaq.

Ona ağır gəlir dalda sürünmək,
Yedəkdə dartınır hər axşam-səhər.
Nə vaxtsa qərq olmuş bir cənazətək
Onu sudan-suya sürükləyirlər.

Körfəzdə dayanmaq istəmir bəzən,
Dərin dəryaları o arzulayır.
Tərpənə bilməyir fəqət yerindən,
Durğun günlərini beləcə sayır.

O fitli-tüstülü paraxoda bax,
Gəmini hər yana dartsa – dartacaq.
O getsə – gedəcək, qalsa – qalacaq,
Bir gün də qərq olub batsa – batacaq.

Sən neçin olursan yedək gəmisi?!
Özün keç hünərlə neçə dənizdən.
Bir ömür verilib sənə cəmisi,
Sürünmə,
Yedəksiz yaşa onu sən.

Arxada sürünən bir ömür boşdur,
Harda alqışlanıb gerilik, harda?
Yedəkdə salamat qalmaqdan xoşdur
Müstəqil qərq olmaq fırtınalarda.

1966

SAVALANIN ZİRVƏSİNDƏ QAR GÖRÜRƏM

Savalanın zirvəsində qar görürəm,
Yellər əsir soyuq-soyuq, sərin-sərin.
Köhnə qardan tar bağlamış o yerlərin
İlk bahara ehtiyacı var, görürəm,
Savalanın zirvəsində qar görürəm.

Güneyi də kölgəlidir quzey kimi,
Bəli, dağ da tablamazmış həsrətlərə.
Nəfəsini xəstə kimi dərə-dərə
O inləyir, o sızlayır bir ney kimi,
Güneyi də kölgəlidir quzey kimi.

Gah gizlənir, gah da çıxır buludlardan;
Seyr edirəm, zirvələri qardı yenə.
Camalını bir tutqunluq sardı yenə,
Görünmədi, yoxsa onu örtdü duman?
Gah gizlənir, gah da çıxır buludlardan.

Seyr edirəm, görməyirəm cəlalını,
Qəlb donduran soyuqdanmı küsmüş həyat!
Savalanın qarı qat-qat, dərdi qat-qat,
O gözləyir qardaşının vüsalını,
Seyr edirəm, görməyirəm cəlalını.

Dağ olsan da dözməyirsən bu dərdə sən,
De, Savalan, mən bu dərdə necə dözüm?
Nə müddətdir baxır sənə həsrət gözüm,
Saralıram qardaşımın firqətindən,
Dağ olsan da dözməyirsən bu dərdə son.

Sənin başın ağarıbdır, mənim saçım,
Ayrılığın meyvəsidir bu qəm-qubar.
Deyirlər ki, dərdi olan dərdi duyar:
Gəl, Savalan, ürəyimi sənə açım,
Sənin başın ağarıbdır, mənim saçım.

Dağlar, düzlər sanki ovcum içindədir,
Əl uzatsam, o sahilə çatar, baxın.
Torpaq doğma, yerlər tanış, mənzil yaxın,
Bəs aranı xəncər kimi kəsən nədir?!
Dağlar, düzlər sanki ovcum içindədir.

Öz yurduna uzaqlardan baxan oldum!
Əlim çatmır, ünüm yetmir indi sənə.
Araz boyu dolaşdıqca dönə-dönə
O sahili küləklərdən xəbər aldım,
Öz yurduna uzaqlardan baxan oldum!

... Savalanın zirvəsində qar görürəm,
Yellər əsir soyuq-soyuq, sərin-sərin,
Köhnə qardan tar bağlamış o yerlərin
İlk bahara ehtiyacı var, görürəm,
Savalanın zirvəsində qar görürəm.

1959

SƏNİN SAÇLARIN

Əli Tudəyə

Saçların ağarır, seyr edirəm mən,
Qardaş, bu dərdindən ellər halıdır.
Vətən dərdi çəkən, el dərdi çəkən
Şairin saçları ağarmalıdır!

Bəli, ağır olur vətən həsrəti
O saç da ağardar, o bel də əyər.
Bir günlük, bir anlıq vətən firqəti
İnsan sinəsinə çarpaz dağ çəkər!

Saçların ağarır, sən o saçları
Yox, yox! Ağartmadın meyxanalarda.
Elin pis günləri, ehtiyacları
Qardaşım, əksini tapıbdır orda.

Bu dərdin oduna səməndər kimi
Budur, alışıram, yanıram mən də.
Onunçün həsrətlər sıxır qəlbimi,
Onunçün saçıma düşüb bu dən də!

Görürəm gözlərin yol çəkir bəzən,
Qəlbində bu yurdun öz məlalıdır.
Böyük bir torpağın dərdinə dözən
Şairin saçları ağarmalıdır!

Saçların ağarır, küsməz sevgilin,
Yox, bizim gözəllər olur ər kimi.
O ağ saçını da sevəcək yəqin
On səkkiz yaşında sevənlər kimi.

O sənin körpənə öz laylasında
Gümüşü saçından söhbət açacaq.
Vətən bayramında, vətən yazında
O sənə ərk ilə deyəcək ancaq:

"Saçların ağarır, sən o saçları
Yox, yox, ağartmadın meyxanalarda.
Elin pis günləri, ehtiyacları
Sevgilim, əksini tapıdbır orda!"

Saçların ağarır ağ zanbaq kimi,
Fəqət solmamışdır gəncliyin sənin.
Cəbhələrdən keçən bir bayraq kimi
Axı, heç olmayıb dincliyin sənin.

Axı, bircə anın, birco dəqiqən
Keçməyib döyüşsüz, mübarizəsiz.
Axı ilk şerinlə dil açanda sən
Dedin: lazım gəlsə öləcəyik biz!

Dedin, azəriyəm öz şöhrətim var,
Dedin, hakimlərin hökmü nahaqdır!
Dedin ki, Arazı sərhəd qoyanlar
Bir gün əlimizlə asılacaqdır!

O günü gözlədik "vəsli-yar" kimi,
Qardaş, üfüqə bax, o gün yetişir.
Birəm-birəm yağan təzə qar kimi
Sənin saçlarına fəqət dən düşür!

Nə eybi bu nöqsan sayılmaz sənə,
Səadət çox asan tapılan deyil.
Sabahkı günlərin təntənəsinə
Çoxumuz ağ saçla gələcəyik, bil!

Nədir o təntənə? – Vahid bir Vətən!
O bizim torpağın istiqbalıdır!
O böyük, müqəddəs günü gözləyən
Şairin saçları ağarmalıdır!

1958

OXU!

(*Rəşt radiosunda Azərbaycan musiqisini dinlərkən*)

Gözlərim gözündən uzaq olsa da,
Oxu, dinləyirəm səni efirdən.
Səmanı çən-çisək, bulud alsa da,
Dalğada səsini axtarıram mən.

Elə axtarıram, görsən sanarsan
Mən çiçək gəzirəm, sənsə baharsan.
Görsən nə susarsan, nə dayanarsan –
Sən hey oxuyarsan, hey oxuyarsan.

Necə gözəl gəlir o ləhcən, səsin,
Hər nəğmən yarama məlhəmdir, nədir?!
Ürək kövrəlməsin, ürək neynəsin –
Hər xalın, zəngulən aləmdir, nədir?!

Gəzib-görməsəm də sizin o Rəşti,
Bilirəm, dost eli, dost torpağıdır.
Sənin oxuduğun "Gəraylı", "Dəşti"
Dərdi gah artırır, gah da dağıdır.

Yandır, o nəğmənlə qəlbimi, yandır!
Bu sayaq yanmaq da bir səadətdir!
Şikəstə deyirsən – sanıram Xandır,
Mahnı oxuyursan – sanki Şövkətdir!

Sazın dilə gəldi, ceyrandan dedin,
Sandım sən deyilsən – Aşıq Pənahdır!
Şirvandan söz açdın, Muğandan dedin
Səni dinləməmək, qardaş, günahdır!

Burda eşitdiyim "Sənsiz", "Bəri bax"
Başqa cür səslənir dilində sənin.
Başqadır "Lalələr", "Pəri", "Çalpapaq".
Başqadır o "Qaragilə"n də sənin!

Oxu, dilə gəlsin, oxu oyansın
Nə vaxtdan uyuyan həsrətim mənim.
Hər dəstgah səhərə çəksin, uzansın,
Efir dinləməkdir qismətim mənim!

Canımdan yorğunluq, gözümdən yuxu
Çəkilir bir anda, oxu, sən yenə.
Sən ey uzaq elli yaxın dost, oxu,
Nəğmən təsəllidir, ümiddir mənə...

1968

***

Araz, Astaraçay axır lal kimi,
Onlara çatmırmı sözlərim mənim?
Gəzib-dolaşdıqca sahil boyunda
Pozur bir-birini izlərim mənim!

Dözərəm hər cürə dəhşət önündə,
Səfalət, rəzalət, zillət önündə.
Bircə bu bitməyən həsrət önündə
Dözmürəm, titrəyir dizlərim mənim...

Arabir gülsəm də, demə arsızam,
Məqam gözləyirəm, demə karsızam!
Nə qədər Təbrizsiz, Şəhriyarsızam
Gülmür, gülməyəcək gözlərim mənim!

1968

BÜTÖVLÜK

Yarımçıq bir havanı oxumaq istəyirəm,
İstəyirəm yarımçıq bir badəni içəm mən.
Yarımçıq bir hananı toxumaq istəyirəm,
İstəyirəm yarımçıq qalmış yolu keçəm mən.

Neynirəm o yolu ki, gedib birdən dayana
Sahilində Arazın, Kürün, Astaraçayın?!
Gərək yollar bütöv bir vətən kimi uzana,
Lap insansız qoynuna çata ulduzun, ayın.

İstəyirəm diləklər çin olsun, başa çatsın,
Nakam arzu görəndə sanki qara geyirəm.
Qoy insanı yuxudan bütöv günəş oyatsın,
On dörd gecəlik ayın nuruna nur deyirəm.

Yarımçıq xatirələr sanki bir top iynədir,
Sancılır xəyalıma, sancılır yaddaşıma.
Yarımçıq duyğular da ürəyimi göynədir,
Deyirəm, hər nə gəlsə, bütöv gəlsin başıma.

Yarımçıq bir sağlığı deyib çatdıram sona,
Sevib vuram axıra yarımçıq məhəbbəti.
Amansız hökmdartək tutub salam zindana
Yarımçıq azadlığı, yarımçıq səadəti.

Deyirəm öz-özümə mən düşünə-düşünə
Gərək yarımçıq qalan ömürləri yaşayam.
Yarımçıq bəlaların medal taxam döşünə,
Yarımçıq talelərin qəm yükünü daşıyam...

1976

DÖRD ƏMƏLİYYAT

Uşaq əldə əlvan şara, göydə uçan qartala
Baxıb həsəd çəkən kimi mənə həsəd çəkirsən.
Sən arabir tutursan da məni sorğu-suala,
Gözlərini bir maraqla gözlərimə dikirsən.

Bu dünyada daş-kəsəkli yollar çıxıb qarşıma,
Fəqət yenə yerimişəm, dönməmişəm əlbəəl.
Sən bilmirsən, ömrüm boyu yüz yol gəlib başıma
Riyaziyyat dünyasında hökm eləyən dörd əməl.

VURULMUŞAM

VURULMUŞAM ürəyimdən – belə vurğu gözəldir.
Qabaq-qənşər dayanmısan, tanıyırsan düşməni.
Vurulmuşam kürəyimdən – bu kəmfürsət bir əldir,
O, boynuma keçirər də bir sabunlu eşməni.

BÖLÜNMÜŞƏM tikə kimi, bölünmüşəm zər kimi,
Elə bil ki, bölünməkçün doğulmuşam anadan.
Hər bəlaya, hər əzaba mən dözərdim ər kimi,
Bax, bircə bu bölünməkdir ürəyimi qanadan.

Bəzən məni görmək belə istəməyib düşmənim,
Öz varlığım ola-ola gəlib özgə üstünə.
Bu ÜSTƏGƏL! Toxunsa da qürurumа bu mənim,
Namərd olub durmamışam özgəsinin qəsdinə.

ÇIXILMIŞAM siyahıdan, ali-ali məclisdən,
Çıxılmışam ləziz-ləziz nemətli süfrələrdən.
Bəzən də heç bilməmişəm təsadüfən, ya qəsdən
Çıxılmışam o yerdən ki, olmalıydım orda mən.

Bu dünyada daş-kəsəkli yollar çıxıb qarşıma,
Fəqət yenə yerimişəm, dönməmişəm əlbəəl.
Sən bilmirsən ömrüm boyu yüz yol gəlib başıma
VURULMA, bu BÖLÜNMƏ,
Bu ÇIXILMA, ÜSTƏGƏL.

1976

ÜRƏYİM

O nə Astaraçaydır, nə Arazdır, nə də Kür.
Yaz ayları gələndə coşur, daşır, köpürür.
Yayda suyu azalır.
Görürsən ki, sozalır,
Tamam quruyur bəzən.
Ona Bolqarçay demiş babalar da əzəldən.
Elə ki sərt keçdi qış,
Elə ki bol oldu qar
Bolqarçaya sığışmır yazda köpürən sular.
O tayda Biləsuvar
Bu tayda Biləsuvar
Vətən xəritəsində axtarsan beləsi var.
Bu bir kənddir Bolqarçay ayırmışdır ikiyə.
(Yenə çayı danladıq "günahkar sənsən" deyə!)
Çayın sahillərini gəzirik dostlarla biz,
Qatarlıdır belimiz, tüfənglidir əlimiz.
Payız ov mövsümüdür: uçur turac, qırqovul,
Göydə nişan almağa oğul istərəm, oğul!
Kolluqlarda tuşlanır ov dalınca lülələr,
Ləzzəti var, yalançı ovçulara gülələr!
Göyəmli dərələrdə dil-dil ötür turaclar.
– daaat-da-da-dat-da-da!
Əks eloyir yamaclar.
Dayanıb bir tərəfdə ovçuların hərəsi...
Birdən ayağım altdan çilli turac fərəsi
Qaqqıldayıb sıçrayır, üz tutur o sahilə.

Sinəmdəki çırpınan ürəkdir, nədir belə?!
Turac deyil, qəlbimdi uçdu ora quş kimi,
Tüfəngi qaldırmıram yerimdə donmuş kimi.
Ovçular gülür mənə:
– Nə vicdansız quşdu bu,
Niyə səni görəntək dayanmadı, uçdu bu?!
Xəyalımı dağıtmır nə söhbət, nə zarafat,
Nə ovçu dostlarımın saldığı bu partapart.
Baxıram o sahilə uçub gedən turaca,
Yox, baxıram sinəmdən qopan ürək dalınca!..

1969

LİVADİYA

Budur sarı əncil, bu da qarası,
Hələ heyvaya bax, nara bax, nara.
Bizim Buzovnanın sanki yarısı
Xəzər qırağından gəlmişdir bura.

Üzüm giləsində quş dimdiyi var,
"Şanı"ya bənzəyir ağ "Massandra".
Sanki şəftəlilər, sulu armudlar
Xəzər qırağından gəlmişdir bura.

Meyvə də, hava da burda bir dadır,
Bircə fərqiniz var, görürəm sizin:
Abşeron Xəzərin qucağındadır,
Krım mavi gözlü Qara dənizin.

Livadiya

Turac

***

Əsdi payız yelləri,
Çiçəklər gizləndilər.
Uzaq elli durnalar
Səmada düzləndilər.

Saçını yoldu bağlar,
Uru yığdı uşaqlar.
Yun əlcəklər, papaqlar
Yenə əzizləndilər.

Bir az keçdi yağdı qar,
Dərə, təpə, çöl hamar.
Yollar, izlər, cığırlar
Təmam təmizləndiər.

1972

TURAC

Çıxdı Kürün qırağında
Qarşıma bir bala turac.
Yada düşdü keçən günlər,
Kaş o dəmlər ola, turac!

Ürkək gözəl təkdi, keçdi,
Kolluqlarda səkdi keçdi.
Sinəmə dağ çəkdi keçdi,
Getmə bir an, qal, a turac!

A Muğanın gözəl qızı,
Unutdunmu andımızı?
At işvəni, burax nazı,
Qon yamaca, yala, turac!

Gəl sənlə səhər-səhər
Seyrə çıxaq biz bir qədər.
Ömrümüzdən keçən günlər
Bir də dönmür dala, turac.

Çöllər yanar Kür olmasa,
Qəlb boş qalar sirr olmasa,
İki ürək bir olmasa
Dostlar getməz yola, turac.

Kürçaylı adlanan kəsin
Dərmanıdır sənin səsin.
Sən oxu, o şeir desin,
Qıyma əhli-hala, turac!

1956

MEYNƏLƏR

Tənək də deyirlər ona, meynə də,
Salxım övladları gilə-gilədir.
Hər gilə şövqüylə gözü göynədir,
Hər gilə mey dolu bir piyalədir.

Yüz illər keçibdir: qoca Hippokrat
Bizim bu elləri gəzib dolaşmış.
O demiş bu üzüm həyatdır, həyat,
Şərabın ecazkar sirrini açmış.

O demiş: körpəyə südlə bərabər
Bir-iki damcı da şərab verin siz.
Onda azar-bezar bilməz igidlər
Onda sağlam olar cavan nəsliniz.